# ORDUBADÇAY VADİSİNİN YENİ ABİDƏLƏRİ

***Toğrul XƏLİLOV,***
*AMEA-nın Naxçıvan Bölməsinin*
*dosenti, tarix üzrə fəlsəfə doktoru,*
*x.toqrul@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Ordubadçay, yaşayış yeri, nekropol, təbiə*t abidəsi, arxeoloji abidə.
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ордубадчай, место жительства, некрополь, памятник природы, археологический памятник.*
***KEY WORDS:*** *Ordubadchay, place of residence, necropolis, natural monument, archeological monument.*

Naxçıvan Muxtar Respublikası zəngin tarixə, mədəniyyətə malikdir. Son bir qərinəyə yaxın dövr ərzində Naxçıvan tarixinin öyrənilməsi diqqət mərkəzində saxlanılıb, bu sahəyə böyük diqqət və qayğı göstərilməsi prioritet vəzifəyə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 23 avqust 2003-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyəti və elmi-tədqiqat institutları üçün bina istifadəyə verilərkən demişdir: "Naxçıvanda yerin altı da, üstü də təbii sərvətdir. Naxçıvanda çox qədim tarixə malik olan mədəniyyət nümunələri aşkar edilib. Ona görə də bunların hamısının tədqiqata, araşdırmaya ehtiyacı vardır". Ali Məclisin sədri tərəfindən 2005-ci il dekabrın 6-da imzalanmış "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamın icrası istiqamətində tədqiqatçıların qarşısında çox mühüm vəzifələr qoyulub, onların elmi fəaliyyətinin konkret istiqamətləri müəyyən edilib. Hər il olduğu kimi, cari ildə də tərəfimizdən bu istiqamətdə tədqiqatlar aparılaraq Ordubadçay vadisindəki Aşağı Əndəmic, Yuxarı Əndəmic, Nüsnüs kəndlərinin ərazisində bir neçə abidə qeydə alınıb, kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilibdir.

Aparılan araşdırma zamanı məlum olmuşdur ki, bu kəndlərin adı təsadüfən yaranmamışdır, müəyyən məna daşıyır. Əldə olunmuş etnoqrafik materiallara görə, "Əndəmic" – "çökək yer" deməkdir. Azərbaycan toponimlərinin ensiklopedik lüğətinə nəzər saldıqda məlum olur ki, orada da buna bənzər məlumat verilmişdir. Qeyd edilmişdir ki, "əndə" - "eniş-yoxuş"; "çala-çuxur", miç isə "su yığılan yer" mənalarını ifadə etdiyi üçün "əndəmic" sözünün mənası "su yığılan çala, çuxur yer"dir [1, s.73].

"Nüsnüs" oykoniminin mənasını araşdırarkən məlum olur ki, "nus" komponenti bir çox qədim dillərdə, o cümlədən türk, ərəb və fars dillərində "nuş/nos/nus/nüs" formasında verilərək "sehirli, tilsimli", "nektar, həyat eleksiri, dadlı, əbədi", "xoşagələn, içilən, dadlı içki" mənasında, "us" komponenti isə "su" mənasında işlədilir. Buna görə də "nüsnüs" sözü "dadlı su", "içməyə yararlı su", "sehirli su" kimi izah edilmişdir [2, s.139-140].

Tədqiqat zamanı müəyyən olunmuşdur ki, uzunluğu 24 kilometr, hövzəsinin sahəsi 42 kvadratkilometr olan Ordubadçayın mənbəyi Zəngəzur silsiləsindən (3200 metr hündürlükdən)

başlanır. Bu çay şimaldan cənuba doğru Ordubad şəhərini iki hissəyə bölür. Əsasən yeraltı sular və qar suları ilə qidalanır. Suvarmada geniş istifadə edildiyindən ilin çox vaxtı Ordubad şəhərindən aşağı axın olmur. Bu çay boyundakı Aşağı Əndəmic, Yuxarı Əndəmic, Nüsnüs kəndlərinin ərazisində yeri müəyyən edilən və qeydə alınan yeni abidələri yaşayış yeri, qəbir abidəsi, təbiət abidəsi, qədim karvan yolu olmaq üzrə bir neçə qrupa bölmək olar.

Yaşayış yerlərindən birinin qalıqları Aşağı Əndəmic kəndinin ərazisində köhnə yoldan aşağıda qeydə alınıb. Sahəsi 2 hektara yaxın olan yaşayış yerindəki tikili qalıqları tamamilə dağılsa da, bəzi yerlərdə nisbətən salamat qalmış divar qalıqlarını müşahidə etmək olur. Orada aparılan tədqiqat zamanı orta əsrlər dövrünə aid şirli və şirsiz keramika məmulatları yerüstü material olaraq əldə edilib (şəkil 1). Şirsiz qabların əksəriyyəti IX-XI əsrlərə, şirsizlər isə XI-XIII əsrlərə aiddir. Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, Azərbaycanın bütün bölgələri kimi, Naxçıvanda da XI əsrə qədər şirsiz qablar, XI əsdən etibarən şirlilər daha çox yayılmışdır. Şirli keramikaların istehsal texnologiyası şirsizlər üçün zəruri olan texnoloji proseslərin hamısını təkrarlamaqla yanaşı, şirin və rəngin hazırlanması, qabların müvafiq üsullarla naxışlanması kimi bir sıra əlavə texnoloji prosesləri də əhatə etmişdir. Hər bir qrupa daxil olan keramika məmulatları texniki xüsusiyyətlərinə və bədii işləməsinə görə müxtəlif çalarlara malik olmuşdur. Şirlə əsas etibarilə süfrə qabları örtülmüşdür. Açıq formaya malik qablar (kasa, boşqab, duzqabı və s.) əsasən içəridən, içərisi görünməyən qablar isə (bardaq, çıraq və s.) çöldən şirlənmişdir. Bəzi iri boğazlı qablar hər iki tərəfdən şirlə örtülmüşdür. Bədii şirli qabların əsas kütləsini kasalar, boşqablar təşkil etmişdir. Şirli qabların hazırlanmasında, xüsusilə onların bədii işləməsində istifadə olunan bir çox texniki üsullar, həndəsi, nəbati, zoomorf ornamentlər Orta və Yaxın Şərq ölkələri, həmçinin Cənubi Qafqaz üçün ümumi olmuşdur. İstər şirli, istərsə də şirsiz qabların çox çeşidli olması onların müxtəlif məqsədlərlə istifadə edilməsi ilə əlaqədar olmuşdur. Onların düzəldilməsində yerli dulusçular Şərq mədəniyyətindən bəhrələnsələr də, Naxçıvanın keramika məktəbi üçün səciyyəvi olan cəhətləri də qoruyub saxlamışlar. Hər iki qrup qabların bənzərləri Azərbaycanın digər yerlərindəki orta əsr abidələrində kifayət qədər aşkar olunmuşdur. Şabranı [3, s.145], Şamaxını [4, s.418-419], Gəncəni [5, s.134], Qəbələni [6, s.54], Beyləqanı [7, s.151] və digərlərini buna nümunə göstərmək olar.



*Şəkil 1.*

Qəbir abidələri Aşağı Əndəmic kəndinin ərazisində qeydə alınmışdır. Onlar tərəfimizdən şərti olaraq birinci və ikinci nekropollar adlandırılmışdır (şəkil 2). Birinci nekropolun sahəsi 1,5 hektar, digəri isə 0,5 hektardır. Birinci nekropoldan fərqli olaraq, ikinci nekropolda ətrafına iri daşlar düzülmüş qəbirlər də müşahidə olunur. Hər iki abidədəki qəbirlərin əksəriyyəti təbii aşınma nəticəsində dağılsa da, bəzi qəbirlərin başdaşıları nisbətən salamat qalmışdır. Onların hər ikisinin eyni quruluşda olması ümumi dəfnetmə adəti ilə bağlı olmuşdur. Bu tip qəbirlər orta əsrlər dövrü üçün xarakterik olduğundan hər iki abidənin həmin dövrə aid olduğunu deyə bilərik.



Birinci Aşağı Əndəmic nekropolu

İkinci Aşağı Əndəmic nekropolu

*Şəkil 2.*

Təbiət abidələri içərisində Nüsnüs kəndi ərazisindəki Ov dərəsi mağarasını, Nəbi qalasını qeyd etmək olar. Mağara dərənin kənarında yerləşir və bir-birinə bitişik iki hissədən ibarətdir. Hər ikisinin girişi eyni istiqamətdəndir. Mağaralardan birinin içərisi bir qədər iri, digəri isə nisbətən kiçikdir (şəkil 3, 2). Nəbi qalası dağlar qoynunda, əlverişli strateji-coğrafi mövqedə yerləşir (şəkil 3, 1). Oradan Ordubadçay vadisinin kəndlərini aydın müşahidə etmək, nəzarətdə saxlamaq mümkündür. Hər tərəfdən sıldırım qayalıqlarla əhatə olunduğu üçün onun ətrafına heç bir iri müdafiə istehkamı çəkilməyib. Abidənin içərisində keramika məmulatları aşkar edilməsə də, istehkam xarakterli tikililərin dağılmış qalıqlarını müşahidə etmək olur. Qalanın hansı səbəbdən belə adlanması haqqında yerli əhali arasında heç bir əlavə məlumat yoxdur. Toplanılan etnoqrafik materiallardan məlum olur ki, yerli əhali bu təbiət abidəsini Nəbi daşı da adlandırırlar. Təbiət abidələri ilə bağlı araşdırma apararkən məlum olmuşdur ki, onlar ekoloji, elmi, mədəni və estetik əhəmiyyət daşıyırlar. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Resbublikasında da xeyli miqdarda belə abidələr vardır. Mağaraların bir qismi (Qazma, Kilit, Daşqala mağaraları və s.) insanların qədim yaşayış məskəni olmuşdur. Əlverişli strateji coğrafi mövqedə olanlardan (Əlincə qalası, Nəhəcir qalası, Qız qalası və s.) isə müdafiə istehkamı, sığınacaq, yaşayış məskəni kimi istifadə edilmişdir [8].




*Şəkil 3.*

Karvan yolu tamamilə dağılsa da, bəzi yerlərdə dağılmış qalıqları qalmaqdadır (Şəkil 4). Yolun yamaca düşən hissələrində çay daşları ilə divarlar qoyulmuşdur. Aparılan araşdırma zamanı məlum olmuşdur ki, bu yol Gənzə kəndinin ərazisindəki "Əlidaş" adlanan yerdən başlayır və Nüsnüs kəndinin ərazisindəki "Deyağa" adlı yerə qədər uzanaraq Nüsnüs, Aşağı Əndəmic, Yuxarı Əndəmic, Gənzə kəndlərini birləşdirir.



*Şəkil 4*

Ordubadçay vadisində yeni arxeoloji abidələrin qeydə alınması sonda onu qeyd etməyə əsas verir ki, qədim tarixə və mədəniyyətə malik olan Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində olduğu kimi, bu ərazidə də bizə məlum olmayan, zəngin tariximizi, mədəniyyətimizi öyrənmək baxımından özünəməxsus yer tutan abidələrimiz qalmaqdadır. Onların aşkar edilərək tədqiqata cəlb olunması hər birimizin qarşısında duran ən aktual məsələlərdəndir. Çünki bu

vacib məsələnin həlli ilə adıçəkilən ərazidə məskunlaşmış insanların məişət və təsərrüfat həyatına, maddi və mənəvi mədəniyyətinə aid yeni faktlar əldə etmək, tariximizi daha dərindən öyrənmək mümkündür. Həmin abidələrin mövcudluğu Naxçıvanda turizmin inkişafı sahəsində də mühüm əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT


1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə, I cild. Bakı: Şərq-Qərb, 2007, 304 s.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə, II cild. Bakı: Şərq-Qərb, 304 s.
3. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan XI-XV əsrlərdə. Bakı: BDU nəşriyyatı, 2001, 396 s.
4. Джидди Г.А. Раскопки средневековой Шемахи // АО, 1980. Москва: Наука, 1981.
5. Джафарзаде И.М. Историко-археологический очерк старой Гянджи. Баку: АН Азерб. ССР, 1949, 103 s.
6. Исмизаде О.Ш. Кабала столица древней Кавказской Албании. Баку: Изд-во АН Азерб. ССР, 1962, с. 54-74.
7. Минкевич-Мустафаева Г.М. Некоторые итоги изучения ремесленного квартала Байлакана // Археологические исследования в Азербайджане. Баку: Наука, 1965, с. 149-160.
8. Naxçıvan Muxtar Respublikası ərazisindəki dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri. Naxçıvan: 2009, 79 s.